Yurd yangılı, vətən nisgilli şair

Şair Haşım Tərlan 1924-cü ildə Bakıda anadan olub. Hələ uşaq ikən ailəsi Cənubi Azərbaycanın Sərab mahalındakı Zəngilabad kəndinə köçüb. Vətəndə vətən həsrəti kiçik yaşlarından Haşım Tərlanın ürəyinə yuva bağlayıb. Uşaqlıqdan şeir yazmağa başlayan H.Tərlan çox keçmədən maraqlı və məzmunlu şeirləri ilə o taylı-bu taylı Azərbaycan oxucusunun diqqətini cəlb etmişdir. Sonradan Tehranda yaşayan şair paytaxt şəhərinin ədəbi mühitinə düşərək daha da püxtələşmiş və yetkin qələm sahibi kimi bir neçə kitabını nəşr etdirməyə nail olmuşdur.

Haşım Tərlanın son illərdə İranda çapdan çıxan şeir kitablarından ikisi — "Yolçu yolda gərək" və "Durnalar gələndə" bərədə qısa da olsa, müəyyən bir informasiya verməyimiz elə bilirəm ki, yerinə düşər. "Yolçu yolda gərək" kitabına "Susmaq bilməyən şair" adlı müqəddimə yazan E.M.Ağdaşlı H.Tərlanın mövzu dairəsi, vətəndaşlıq mövqeyi, şeirlərinin sənətkarlıq xüsusiyyətləri barədə geniş elmi təhlil aparır, onun yurd yanğısından, torpaq nisgilindən doğulan alovlu yazılarını yüksək dəyərləndirir. E.M.Ağdaşlı öz müqəddiməsini bu sözlərlə tamamlayır: "Artıq ixtiyar çağlarını yaşamağına baxmayaraq, "Haşım əmi" çox çevik və gümrahdır. Mən ona cansağlığı, uzun ömür və müvəffəqiyyət arzulayıram".

"Yolçu yolda gərək" kitabına toplanan şeirlərdən "Mən Azəri oğluyam", "Dünya mənə kiçik gəlir", "Göyərçin", "Ağlama, Ərdəbil", "Bakılıyam mən", "Qarabağ marşı" haqqında geniş danışmağa dayər, təkcə onu qeyd edirik ki, bu yazılarda ikili tale yaşayan bir qərib şairin ürək döyüntüsü, yurda yurddaş məhəbbəti, vətənə övlad sevgisi duyulur. Kitabın sonuncu şeri "Quzularım" isə uşaqlar üçün yazılıb. Səminli və axıcıdır.

Haşım Tərlanın "Durnalar gələndə" kitabına toplanan şeirlər də şairin illərdən bəri dəyişməyən mövqeyini və əqidəsini mükəmməl ehtiva edir. Q.Budağinin "Əqidə şairi" başlıqlı ön sözü bu şeirlərin leytmotivini açmağa yardımçı olur. Ön söz müəllifi yazır: "Haşım Tərlanın şeirləri də özü kimidir: səmimi, kövrək və nisgilli. Onun yaradıcılığı ilə şəxsiyyəti arasında heç bir fərq yoxdur".

"Durnalar gələndə" kitabında toplanan "Yanar ocaq", "Qarabağın xalısı", "Vətənim mənim", "Çinar və tufan" kimi şeirlərdə şairin fəlsəfi dünyadduyumu, xalq ruhundan, el təfəkküründən gələn poetik düşüncəsi oxucunu təsirsiz buraxmır.

Ömrün səksənini arxada qoyan, ürəyi yazıb-yaratmaq eşqi və vətən məhəbbətilə döyünən dəyərli şairimiz Haşım Tərlana biz də cansağlığı və yaradıcılıq uğurları diləyirik.

A.Savalan



Haşım Tərlan

Ey Təbrizim, Bakım mənim

Bir ananın iki gözü,
Ey Təbrizim, Bakım mənim.
Yarasında hicran közü
Qor eyləyən xakim mənim
Ey Təbrizim, Bakım mənim.

Biri anam, biri atam,
Kələmımda yoxdur xatam.
Birin tutam, birin atam
Bu mümükünmü, erkim mənim?
Ey Təbrizim, Bakım mənim.

Araz güldü, dağa döndüm,
Fərəhli bir çağa döndüm.
Sola döndüm, sağa döndüm,
Sizi gördüm, mülküm mənim,
Ey Təbrizim, Bakım mənim.

Astarada ocaq yandı,
Bağlı qapı aralandı.
Sevincimdən havalandı
Başımdakı börküm mənim,
Ey Təbrizim, Bakım mənim.

Bax zəmanın tədbirinə,
Şəfəq çöküb dan yerinə.
Qonaq gedir bir-birinə
Ərdəbilim, Şəkim mənim,
Ey Təbrizim, Bakım mənim.

O tay, bu tay öz bağımdır,
Rəngin kaman darağımdır.
Savalan şah budağımdır,
Dədə Qorqud köküm mənim,
Ey Təbrizim, Bakım mənim.

O tay, bu tay zaman vardı
Toyu-yası bir olardı.
Qız verərdi, qız alardı,
Belə idi ilkim mənim,
Ey Təbrizim, Bakım mənim.

Ömür sərkeş yelə döndü,
Nə danışdı, nə də dindi.
Bölünənlər bütövləndi,
Tərsə düşüb bölgüm mənim,
Ey Təbrizim, Bakım mənim.

Dünyamızı dolandı şər,
Könlüm olub dəymə-düşər.
Araz üstə el görüşər,
Gəl ey bəxtim, sevgim mənim,
Ey Təbrizim, Bakım mənim.

Bir gün gələr Araz daşar,
Hicran dəmi uzaqlaşar.
Ayrılanlar qucaqlaşar,
Buna yoxdur şəkkim mənim,
Ey Təbrizim, Bakım mənim.

Mən Azəri oğluyam

Ehey, kimsən dayan!
Qələmi yabancı sözlərlə gurlayan,
Sənin ləyem, bax bəri!
Taxma şux dilimə o zəncirləri —
Mən Azəri oğluyam,
Azəri türkü.
Qoymaram başından qopa bir tükü.
Adım bir, dilim bir,
Vətənim, elim bir.
Dilimə vurduğun yamaqlar nədir?
Mən Azəri oğluyam,
Dədə-Qorqud əcdadım
Babək qılıncım,
Nəsimi qurşadım,
Səni bu hökmünlə kimə oxşadım?
Ərəblər dilimdə at çapdı getdi,
Daralar gözümdən nur çatdı getdi,
oxlandı dilim,
qayalara mıxlandı dilim.

Anam zəmanədən oyandı erkən,
Qovr eyləyir yaram dedi,
Mən də varam dedi.
Darandı, arandı, keçdi eləkdən,
İndi o göz vurur mənə ələkdən.
Mən Azəri oğluyam, — Azəri türkü,
qoymaram başından qopa bir tükü.

Tehran

Rumıniyada Azərbaycan mədəniyyəti günləri keçiriləcək

Gələn ilin may-iyun aylarında Rumıniyada Azərbaycan mədəniyyəti günləri keçiriləcək. Bu barədə jurnalistlərə Azərbaycanın Rumıniyadakı fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənov məlumat verib.

Hazırda mədəniyyət günlərinin proqramı ilə bağlı Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyi bir sıra işlər həyata keçirir. Səfirin sözlərinə görə, gələn il Azərbaycanda da Rumıniyanın mədəniyyət günlərinin keçirilməsi nəzərdə tutulur.

"Şair şeri çiçəkləyir"

Anatol Fransın sözüdür ki, şairlər sevməkdə bize kömək edirlər — "düşüncələrimizin qıyafəsini dəyişmək üçün bize verilən ilahi sözün" (Taleyran) kömeyi ilə. Və bu kömaklik o zaman qəbul edilən olur ki, söz sahibi qələmlə dəyirmanın haram götürməzliyi heqiqətinə daha çox tapınır. Çağdaş poeziyamızın tanınmış nümayəndələrindən biri olan İlham Qəhrəman bələdçimizdir. Bu fikrin altını cızmaqda ona görə inamlıyıq ki, əlimizin altında İ.Qəhrəmanın "Ey dil" kitabı var və bu, başdan-başa sevgi yardımçısı olmağa niyyətli bir kitabdı. Yurda, vətənə, ata-anaya, oğula-qıza, bacıya-qardaşa, cəmiyyətə, dünyaya, daha geniş anlamda, ilahi qüvvəyə, böyük Yaradana olan sevgi hissləri ilə süslənib İlhamın şeirləri. Ona görə də bu şeirlərin xoş niyyəti dərin şükranlıq, "amin"lik duyğusu ilə qəbul edilir. Bu zərif misralara, bu gözəl niyyətə qıyıb, necə "amin" deməyəsən? —

Mən qədərə boyun əydim,
Yerə qoydum yarağı.
İblislərin ağzı yansın,
Mələklərin çırağı...

İ.Qəhrəmanın deyimləri sadə, səmimi və gözlənilməzdi. Paradokslar onun şeir texnikası üçün başlıca, özü də ən çox nail olunan cəhətlərdi. Fikir verək:

Əldə tüfəng getdim özümü atam,
Dedilər: — İlhamdı, gör ova gedir?!

İlham Qəhrəman. "Ey dil". "Adiloğlu" nəşriyyatı — 2006

Və yaxud:

Gördüm ki, adam tək ölüb getmişəm,
Gördüm ki, ot kimi dinlimişəm mən...

Deyim o qədər səmimidi ki, oxucu heç "dinlimişəm" əvəzinə "göyərmişəm" yazmağın gərəkliyinin fərqinə də varmır. Bu səmimiyyət İlhamın bütün şeirlərinin canından qırmızı xətt kimi keçir. "Kim öle, kim qala" şərində olduğu kimi:

İlham isinmədi istinə sənin,
Əldə bıçaq duram qəsdinə sənin,
Qanımı tökərəm üstünə sənin, —
Deyərlər bəzənib, xına qoymusan...

Təəssüf edirsən ki, bəzən bu səmimiyyət məntiqi, mahiyyəti üstələyir. "Qu quşu"nda olduğu kimi:

Deyir, Qu quşları amansız sevir,
Mənı bu sevginin başına döndər,
Mənı bu sevginin başına çevir,
Ağlama, Qu quşu...

Şərt o deyildi ki, mənə gələsən,
Şərt o deyildi ki, mənim olasan...

Oxucu bax elə buradaca dayanır və "Şərt o deyildi ki, mənə gələsən" ifadəsindəki qeyri-dəqiqliyi adı böyük hərflərlə yazılan quşa heç cür uyuşdura bilmir. Burada "amansız" sözünün də yerində işlənmədiyi göz qabağındadı. Görünür zahiri effekt məntiqi üstələyib. Hərçənd müəyyən rad tuta bilər ki, buradakı Qu quşu sevgili, qız mənasında işlənib. Ancaq o anlamda işlənsə də belə, bu şeri ifadə tərzi gözlənilən effekti vermir.

İ.Qəhrəman

Ey dil, sünbülündə sular oynasın,
Sən mənden döndüyün gündən ölürəm.
Məni güllələyib say öyrənirdin,
Bir! Durdum...
Beş! Durdum... mindən ölürəm.

— misralarında daha çox yaddaqalandı. Ancaq bu misraların özündə belə "durdum" əvəzinə "düzdüm" yazılsa, daha uyarlı olduğu da düşünülür. İ.Qəhrəman "Sevilən hər qadın dar ağacıdı" deyiminda daha dəqiqdi. O, "şair şeri çiçəkləyir" müşahidəsində daha dəqiq və səmimidi.

"Ey dil"i oxuyursan və yarda ilk öncə Stefan Mallartenin dedikləri düşür: "Poeziya — açarını oxucu axtarmalı olan möcüzədir". "Ey dil" bizi bu möcüzələr adasına dəfolunmaz bir qüvvəylə çəkməkdədi. Ehtiyatlı olmalıyıq ki, açarı unutmayaq.

Sərvaz

Mərkəzi Asiya ölkələrinin I Beynəlxalq Teatr festivalına Azərbaycan da qatılacaq

Sentyabrın 6-dan 13-nə qədər davam edəcək festival Qazaxıstanın paytaxtı Almatıda keçiriləcək

Gələn ayın 6-da Almatı şəhərində Mərkəzi Asiya ölkələrinin I Beynəlxalq Teatr festivalı keçiriləcək. Festivalın İcrayyə Komitəsinin açıqladığı məlumata görə, sentyabrın 13-dək davam edəcək tədbirdə Özbəkistan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Qazaxıstanla yanaşı, Azərbaycan və Tatarıstanın dram teatrları da öz tamaşalarını təqdim edəcəklər. Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək festivalda əsas məqsəd region ölkələrində dövlətlərarası mədəni-humanitar əməkdaşlığı genişləndirmək və möhkəmləndirmədən ibarətdir. Regionda vahid mədəni məkanın formalaşdırılması, son illərin səhnə işi ilə bağlı təcrübə mübadiləsi, qarşılıqlı faydalanma, teatrların yaradıcılıq təşəbbüsünün stimullaşdırılması, peşəkar ünsiyyət üçün şəraitin yaradılması, teatral prosesə iştirakiyyətin dıqqətinin stimullaşdırılması və digər məqamlar festivalın məqsədləri sırasına daxildir.

Qeyd edək ki, festivalın açılışı sentyabrın 7-də Q.Musrepov adına Uşaq və Yeniyetmələr Teatrında, yekunu isə sentyabrın 13-də M.Auezov adına Akademik Dram Teatrında keçiriləcək.

Bibliografiya: "Hikmət Mahmud"

Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutu şair, geologiya-mineralogiya elmləri doktoru, professor Hikmət Mahmudun əsərlərinin bibliografiyasını nəşr etmişdir. "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından çap olunan kitabda Hikmət İsmayıl oğlu Mahmudovun həyatının əsas tarixi dövrləri, elmi-pedaqoji, ictimai və ədəbi fəaliyyəti əz əksini tapmışdır. H.Mahmudun əsərlərinin bibliografiyası 1961-2006-cı illərdə Azərbaycan, türk, eləcə də rus, ingilis, alman, bolqar, gürcü, fars və digər xarici dillərdə dərc edilmiş elmi və ədəbi kitabları, monoqrafiyaları, dərslikləri, habelə, külliyyatlarda, müxtəlif elmi-ədəbi jurnallarda və yerli mətbuatda çap olunan məqalələri əhatə edir.

Bibliografiyada daxil edilmiş materiallar xronoloji qaydada verilmişdir. Göstəricidə H.Mahmudun elmi-pedaqoji, ictimai və ədəbi fəaliyyəti haqqında qısa məlumat, həyatının əsas tarixi dövrləri, redaktorluq fəaliyyəti, həmçinin, onun haqqında yazılmış məqalə və açerklər əyrı-əyrı bölmələrdə öz əksini tapmışdır. Bibliografiyanı tərtib ederkən alimin şəxsi arxivindən istifadə edilmişdir. Göstəricidən istifadəni asanlaşdırmaq üçün toplunun sonunda alimin əsərlərinin, müştərək müəlliflərin və onun haqqında yazmış müəlliflərin əlifba göstəricisi verilmişdir.

Toplunun tərtibçiləri professor S.Ə.Bəktaşi və K.F.Səmədova, redaktoru Səyavuş Məmmədzadədir. Azərbaycan və rus dillərində çapdan çıxmış göstərici "Səda" nəşriyyatının (2006) məhsuludur.

Ürəyimə damıb ki...

"Xatirələri təzələyəsi, vərəqlərə söz ələyəsi" yaz buludu kimidi Rafiq Yusifoğlunun "Həsrət sazağı" adlı şeirlər kitabı. Elə ilk misraları oxuyan kimi özün üçün qəti olaraq yəqinləşdirirsən ki, indicə bolbol ötən xatirələrin, vətən, yurd, doğma od-ocaq sevgisinin leysanı "Şirvannəşr" — 2006 sinə düşəcəksən. Vərəqləri çevirdikcə səmimi, kövrək poeziya havası bizi elə çulğalayır ki, artıq bu leysanın bizi necə islatmasının fərqinə varmırıq... Artıq buradan belə "Ata evi"di, "Qaraçı yurdu"du, "Kəpəz"di, "Üşüyən daşlar"dı həmsöhbətimiz, "Azadlıq"dı nicat yerimiz, "Yaz dumanı" kimidi fikirlərimiz. Bu kitab boyu "Dağlara sarı üz tut"uruq və bilirik ki, bu sevdada "yora bilməz yollar bizi".

Rafiq Yusifoğlu. "Həsrət sazağı". "Bakı, "Şirvannəşr" — 2006

Elə bu səbəbdən müəllifin "içində Ay gecələyən" çayı "Sinəsi üstünə saz kimi" basmaq, "bir kərpə dağ çayını bələdçi" tutmaq marağı da bizə təbii gəlir.

"Qapımızda bitən tutlar", "Tək armudun önündən düşüncələr" adlı şeirləri bir oxucu olmaqdan daha çox öz yaşantımız kimi qəbul edirik (şeirlərin adındakı "tutlar", "armudun" sözlərindəki yerinə düşməyən ifadə tərzinə baxmayaraq belə).

Müəllifin tut ağaclarına xitabən:

Qapımızdan getməmisiz heç hara,
Hamımızdan etibarlı sizsiniz, —
minnətdarlığı da səmimi və yaddaqalandı, —
Yanağıma süzüldü dən-dən.
Bir qurumuş tək armudun yerində
durdum,
Ağac olub bitmək keçdi mənim
qəlbimdən.

— qənaəti də. Elə bil müəllif hər bir oxucunun mənəvi təəssüfünün, peşimanlığının şəklini çəkib:

Əziz gəlir burda mənə ot da, ağac da,
Bu dərəndən, bu təpədən adam utanır.
Köhlənimi oynatdığım o yol-yamacda
Ayrı uşaq məhmizləyir indi atını.

Bu kitab boyunca Rafiq Yusifoğlu "titrək qələmiylə açdığı şuma" fikirlərini toxum kimi səpməyi bacarıb.

Bu kitabda bizim hər birimizin ürəyinə daman ən xoş duyğulardan nəsə bir mətləb, nişanə var. Kitab "Mənim Azərbaycanım", "Tərəzidir elin gözü", "Haqqın yolu", "Ömrümgünüm", "Möcüzəli, sirli dünya", "Sevdalı diyar", "Sevgi yağışları", "Əkir ayrılığın soyuq yelləri", "Mənə məktub yazan allər", "Ötən sevdaların həsrət nəğməsi" fəsillər ilə təqdim olunur və hər fəslin öz ovqatı, öz duyğu sovqatı var. Oxuyanlara daha çox pay düşər...

S.Hüseynoğlu



Allah rəhmət eləsin

Azərbaycan Yazıçılar Birliyi **Elbariz Məmmədliyə**, anası

AFTAB xanımın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor: Ayaz Vəfalı

Redaksiya heyəti: Hüseyn Abbaszadə, Şirindil Alışanlı, Aqşin Babayev, Nizami Cəfərov, İsa Məhəbbəyli, Hidayət, Nazim İbrahimov, Elçin İskəndərzadə, Atababa İsmayılloğlu (məsul katib), Yusif Kərimov, İlham Qəhrəman, Əkbər Qoşalı, Bəkir Nəbiyev, Qəzənfər Paşayev, Ramiz Rövşən, Rübail, Sabir Rüstəmxanlı, Vaqif Səmədoğlu, Vasif Süleyman, Azər Turan (baş redaktor müavini), Bəxtiyar Vahabzadə

Təsisçilər: Azərbaycan Yazıçılar Birliyi, "Ədəbiyyat qəzeti"nin yaradıcı əməkdaşları

Redaksiya şurası: Yavuz Akpinar (Türkiyə), Betti Bleyer (ABŞ), Əbdüllətif Bəndəroğlu (İraq), Harid Fedai (Şimali Kipr Türk Respublikası), Cavad Heyət (İran), İldəniz Qurtulan (Türkiyə), Lüdmila Lavrova (Rusiya), İren Melikof (Fransa), Əhməd Şmide (Almaniya), Qulamrza Səbri Təbrizi (İngiltərə), İrfan Ülkü (Türkiyə)

"Ədəbiyyat qəzeti"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Hesabımız: h/h YSM-324665 AZM-3201-01, ABB Yasamal filialı KOD 805562

Redaksiyanın ünvanı: Bakı - AZ 1073, Mətbuat pr. 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə

Telefonlar: baş redaktor 439-52-56, baş redaktor müavini 439-50-67, məsul katib 439-91-68, şöbələr 438-03-17. Faks: 438-85-70. E-MAIL: redaksiya@edebiyyatqazeti.com

Qiyməti: satış - 800 manat; yeni qiymət - 16 qəpik, abunə - 500 manat; yeni qiymət - 10 qəpik
Əlyazmalar geri qaytarılmır. *Qəzet cümə günü çıxır.*
Çapa imzalanmışdır: 10.08.2006 saat 2200

Şəhədətnamə N:186
İndeks 66800

Sifariş 3191
2073 nüsxə